# Epoxal roman-dilogiya - ömrün acılı-şirinli illərinin bədii salnaməsi

## və yaxud, xatirə-memuar janrında bədii-audentik roman...



*Qurban BAYRAMOV,*
*tənqidçi-ədəbiyyatşünas*

*(Əvvəli ötən saylarımızda)*

Romanda Murad şanslıdır, aktivdir,yaradıcıdır, dostcanlıdır, diqqətcil və müasirdir, səlahiyyətinn yerini biləndir, mühitə uyğun yaxşıya doğru dəyişəndir, yeni dinamikdir, inkişafdadır, ciddidir və s. Burada obrazın adının mənası ilə əməli, fəaliyyəti, prinsipləri, xarakteri qovuşur, obrazla obrazın adı bir-birini tamamlıyır...

Murad elə də, sirli xarakter deyil, amma mürəkkəb xarakterdir. Əsərdə qəhrəmanın ikili həyatı paralel şəkildə yaşanır. Muradın anası, qardaşı, qohumları, qonşuları, kənd camaatı, məktəb və institut yoldşları ilə münasibətləri, sevgi həyatı, iş həyatı - hər biri əsərdə kənar element funksiyası daşımır, əksinə mərkəzçi status daşıyır. Eyni zamanda onun kitaba, oxumağa aludəçiliyi, təbiətə sığınmağı, heyvanlarla ünsiyyət yarada bilməsi, bir çox hallarda tənhalığa meyilliliyi, dağa, ağaca, dənizə tapınmağı, ziyarətgahlara inam və inancı və s. onun xrakterini şərtləndirən elementlərdir... Yazıçı qəhrəmanın təkliyini, tənha qalmağa, düşüncələri ilə tək qalmağa çalışaraq özünəqapanmanı tez-tez önə çəkir, iş prosesində olsa belə, içindəki dünya ilə baş-başa qalmış vəziyyətdədir. Hətta dəniz kənarında tənha gəzintiləri onun daxili aləminin psixoloji açarı olur...

Bu roman -dilogiya, əslində, müəyyən bir tarixi dövrü əhatə edən yurdun tərcümeyi-halıdır. Buradakı kəndlər çoxdan boşaldlıb, məhv edilib, az qala yaddaşlardan silinir. Əsər Azərbaycanın şimal zonasının, xüsusən də, Xızı bölgəsinin tarixi-etnoqrafik mənzərəsinin, coğrafi arealının bərpası kimi də maraqlıdır. Buradakı coğrafi adlar (toponimlər, etnonimlər, oykonimlər, hidronimlər, oronimlər) əvəzsiz tarixi mənbələrdir.-Xızının-Şabranın-Qubanın toponimiyasında etnik xarakterli yer-yurd adları üstünlük təşkil edir və əsasənAzərbaycan - Türk mənşəlidir... Məlumdur ki, coğrafi adlar (toponimlər) xalqın milli sərvəti və tariximizin gügüsüdür. Yer-yurd adları xalqın keçmişini, indisi və gələcəyini göstərən şahiddir. Çünki bunların bir çoxu ulu babalarımızın - qədim hunlar, savirlər, bulqarlar, peçeneqlər, oğuzlar və onların sonrakı nəsillərinin yaşıdıdır. Romanda Azərbaycan-Türk mənşəli toponimlərinin, etnonimlərin bir qisminin əks olunması, bu baxımdan, olduqca əhəmiyyətlidir.

Beləliklə, Azərbaycanön şimal zonasının - Xızı-Şabran-Quba-Qusar ərazisi türk mənşəli makro və mikrotoponimlərlə, etnotoponimlərlə zəngindir. Bu toponimlərin (istər dəyişdirilmiş və istərsə də passiv fonda keçmiş) toplanması və araşdırılması Azərbaycan-türk dili və tarixinin müəyyən səhifələrinin açıqlanmasında əsaslı rol oynaya bilər ki, bu mənada Məmməd Əliyevin roman-epopeyasında zəngin məlumat var.

Roman-dilogiyanın maraqli cəhətlərindən biri odur ki, əsərdə dövrün, zamanın və bu dövr-zaman daxilində yaşayan, fəaliyyət göstərən insanların məziyyətləri ümumiləşdirilir, onların sosial-psixoloju halları haqqında səlis məlumat verilir. Məmməd Əliyevin romanlarında situativ keçidlər, ekskurslar enerjisinin axarında oxucu çoxxətli, bədii-fəlsəfi-sosial yüklü elastik ədəbi dinamika ilə qarşılaşır və bu axında personajların və ədəbi qəhrəmanın başına gələn metamorfozları maraqla izləyir....

BU KONTEKSTDƏ MİLLİ ROMANÇILIQ SAHƏSİNDƏ MƏMMƏD ƏLİYEVİN MEMUAR-ROMAN EPİZMİNƏ GƏTİRDİYİ ƏDƏBİ BAXIŞLAR, JANRIN İMKANLARINA YANAŞMA TƏRZİ , FİKRİMİZCƏ, TAM FƏRQLİ İSTİQAMƏTDƏ TƏTBİQİNİN AKTUALLAŞDIRILMASINA YOL AÇACAQ, ELƏCƏ DƏ, YAZIÇI MƏMMƏDİN MEMUAR-EPOPEYA POETİKASINA TƏZƏ BAXIŞ BUCAĞI KİMİ, YENİ ƏDƏBİ-BƏDİİ ÜSLUBUN, ƏDƏBİ PLATFORMANIN YARANMASINA SƏBƏB OLACAQ.







Bütün bunlar göstəririr ki, professor, ədəbiyyatşünas-nəzəriyyəçi, artıq yarım əsrdən çoxdur ki, həm bütün varlığı ilə bağlandığı elmi-nəzəri mühitində, həm ruhən, mənən mənsub olduğu ədəbi aləmdə, indi də ədəbi-bədii came siferasında, həm, ümumən, cəmiyyətdə sırf özünə məxsus, məhz ona aid, onun özünün qazandığı fəxri mövqedə - istedadlı və abırlı alim-yazıçı mövqeyində dayanmaqdadır.

BAŞQA SÖZLƏ, BÜTÜN FƏALİYYƏTİ BOYU ALİM-YAZIÇI ƏXLAQI DEYİLƏN NƏSNƏYƏ UYĞUN TƏVAZÖKAR, SADƏ, NƏCİB, MƏSULİYYƏTLİ VƏ MƏĞRUR OLUBDUR... TƏHRİKLƏ, TƏSDİQ EDİRİK Kİ, BU DİLOGİYA-EPOPEYA DÜNYA ƏDƏBİYYATINDA GENİŞ YAYILMIŞ MEMUAR JANRININ REMEYKİ, YƏNİ YENİ VERSİYASI DEYİL, TAMAMİLƏ MÜƏLLİFİN ÖZ YENİ VERSİYASIDIR...

Məmməd Əliyevin roman-dilogiyasının daha bir məziyyətini qabartmaq istərdim. Ədəbi tənqidə vaxtilə qərarlaşmış bir anlayış var idi - şəhər və kənd yazıçısı... Əlbəttə, yazıçı yazıçıdır... Şəhər, ya kənd yazıçısı yoxdur, bu doğrudur. Amma kənd həyatını, ya şəhər mühitini yaxşı, mükəmməl mənimsəyən, onu əsərlərində incəliklərinə qədər təsvir edən əsərlər və bu əsərləri də qələmə alan yazıçılar - ədiblər var!! Məmməd Əliyev roman-epopeyasında həm kənd həyatını, mühitini, həm də şəhər həyatını və mühitini müvazi bir şəkildə,canlı boyalarla təsvir edə bilib, bu iki mövzunun ədəbi-bədii paralelizmi canlı insan xarakterlərini, talelərini əks etdirən epizodlarla bütün cizgiləri ilə görsənir. Buradakı bədii, müxtəlif məqamlarda isə özünü göstərən, amma roman estetikasına xələl gətirməyən publisistik, elmi ricətlər də az rol oynamır...

Bu romanlarda süjetdə özünü tutarlı bir xətt kimi göstərən maraqlı əfsunlu (maqik) realizm xəttidir... Bu eləcə maqik realizmdir, mövhumatdan, mövhumatçılıqdan, xürafatdan - kor-koranə inam və itaətdən, möhtəkirlikdən tam uzaq bir maqik-realizm... Müasir ədəbiyyat nəzəriyyəsində "Magik realizm"i - magik elementlərin dünyanın realist mənzərəsinə daxil edildiyi bədii metod təkin qəbul edirlər. Əslində, mifdən, rəmzdən, alleqorik obrazdan realist əsərlərdə istifadə nəzərdə tutulur və ədəbi metod təkin Cənubi Amerikada, sonra Avrpada formalaşdığı deyilir. Bəlkə də, nəzəriyyələşdirilməsi belədir. "Magiklik" ədəbiyyatda, xüsusən də Şərq ədəbiyyatında uzaq tarixdən bəri həmişə olmuşdur,sadəcə nəzəri postulata salınmamış, nəzəiyyələşdirilməmişdir.

Şəxsən mən, maqik realizm deyilən xəttin ədəbiyyata Latın Amerikasından gəlməsini qəbul etmirəm. Bir ədəbi təmayül kimi bunu "maqik realizm" adlandırıblarsa, nəzəriyyələşdirilibsə bu başqa məsələ... Amma, Azərbaycan ədəbiyyatında bu maqik qüvvələrə - obrazlara Qədimlərdən poeziyamızda, XIX əsrdən isə M. F. Axundovun pyeslərində, "Məktublar"ında, Ə.Haqqverdiyevin nəsrində (məsələn, elə "Xortdanın cəhənnəm məktubları"nda), H.Cavidin "İblis"ində, "Şeyx Sənan"ında və sonrakı mərhələdə bir çox ədiblərimizin əsərlərində maqik obrazlara müraciət ardıcıl olmuşdur. Məmməd Əliyevin roman-epopeyasında isə bu xətt hadisənin baş verəcəyini əvvəlcədən sezən intuitiv qənaətlərin dalbadal düzülüşü və mövhumatdan, xürafatdan uzaq xalq inancları şəklində özünü göstərir.

Romanda bir silsilə övliya, seyid gerçək obrazları verilir. Bunlardan Bakı və Abşeron camaatının biyət elələdiyi Mir Möhsün Ağa, Ağanın bacısı Seyid Səkinə, Xızı camaatını biyət elədiyi Mir Sadıq Ağa (155 il 1801-1955 ömür sürüb), Mir Qurban, Seyid Ağayəhya, Seyid Hüseyn, Seyid Fatma, Seyid Nurcahan bibi, Mirbala kişi, Seyid Mir Cabbar Ağa və s. seyidlər əhalinin onlara inam və inancı faktlarla, ağır məqamda xilaskarlıq missiyasında təqdim edilir...

Həmçinin romanın axarında baş verən hadisələrlə əlaqədar Həzrət Abbas ərizəsi, Xıdır Nəbi butası, Nilufər gülü əhvalatı, Qurdağzı duası,"Qurban" deyilən heyvanın sümüyünü tapıb yandırmaq (yağış kəsmək üçün), göydə ulduz axanda salavat çevirmə inancı, Taclıxanım ziyarətgahı, "Qurd yuvaları" mağaralarındakı Alarvardı əfsnəsi, cin yuxugörmələr, genetik tarixi yaddaşın yuxuda bərpası, övlyaların yuxuya gəlməsi - bütün bunlar əsərə sehirli, maqik bir ovqat aşılayır...

MƏN ONUN PARLAQ NƏSRİNDƏ ƏDƏBİYYATIMIZIN ƏN SAĞLAM ƏNƏNƏLƏRİNİN YENİ DÖVRDƏ, YENİ ÜSLUBLA DAVAM ETDİRİLMƏSİNİ GÖRÜRƏM, KEÇMİŞİN İNKARINI YOX, KEÇMİŞDƏ OLANIN GƏLƏCƏYƏ XİDMƏTİNİ GÖRÜRƏM. DAVAM ETMƏK SƏNDƏN ƏVVƏLKİLƏRİ DANMAQ DEYİL, SƏNDƏN ƏVVƏLKİLƏRİ DAHA DA İNKİŞAF ETDİRMƏKDİR.

Roman-dilogiyanın məzmun və mövzusu hədsiz lokal, məhəlli xarakter daşıdığı qədər də, hədsiz dərəcə də, qeyri-lokal və qeyri-məhəllidir, dövrün özüdür... Onun bu romanında baş qəhrəman Muradın düşdüyü ən ümidsiz anlarda işıqlı, inamlı bir ümid, ən inamsızlıq anında gələcəyə böyük inam işığı, hənirtisi, uzaqda, toranlıqda görünən səmt işığı - mayak var! Bu romanın insani humanizmi, əsas qayəsidir...

Məmməd Əliyevin bu memuar-roman-dilogiyasını oxuyarkən, Azərbaycanın qüdrətli fikir nəhəngi, Xalq yazıçısı, akademik Mirzə İbrahimovun bir kəlamı (İmamverdi ƏbilovaHörmətlə: Mirzə İbrahimov. 20.11.74-cü ildə yazdığı məktubdan) yadıma düşdü: "Mən ədəbiyyat və sənətə insanların həyatını, fikrini, əxlaqını yaxşılaşdıran qüdrətli və çox lazımlı, faydalı bir mübarizə silahı kimi baxanlardanam. Bədii sözü əyləncə, oyunbazlıq vasitəsinə çevirən cərəyanları və onların gözqamaşdırıcı "tapıntılarını", forma oyunlarını, ədəbazlığını daxilən qəbul edə bilmərəm..."

Bu kəlam bütünlüklə elə bu roman-dilogiyanın baş qəhrəmanı Muradın taleyində mühüm rol oynamış Mirzə İbrahimovun bu romana, onun məna-məzmun siqlətinə aid edərdim!!

Romanın janrının imkanlarının tələbinə görə hadisələrin məkan və zaman yerdəyişmələri bizə - oxucuya həmin bölgənin, kəndlərin, şəhərin, başqa sözlə məkanın mədəniyyətini, tarixini, etnoqrafik özəlliklərini də öyrənmək şansı yaradır. Eyni zamanda, xatirələr zəncirində bu təsvirlərər yorucu təsir bağışlamır, əksinə maraq doğurur, əhvalatdan əhvalata, hadisədən hadisəyə keçidlər montaj təsiri bağışlamır, təbii axarla davam etdirilir, yeni-yeni təəssüratı yaradan gerçək epizodlar, ədəbi-bədii mizanlar xüsusi duyğusal bədii-psixoloji effekt doğurur, xüsusi emesional enerji axını baş verir...

Roman-dilogiyanın müasirliyini şərtləndirən mühüm bir cəhət odur ki, təsvir olunan vaqeələrin xatirə zənciri qırılmadan öz zaman məkanında donub qalmır, gizli dinamika baş verir, əsas qəhrəmanların həyatı çağımıza proyeksiya edir. Çünki bu real qəhrəmanlardır və onların nəsil ağacları bu günümüzün budaqlarındandır, onların oğul-uşaqları, nəvə-nəvvadələri çağımızın adamlarıdır, müasir dünyanın mənəvi problemlərində fokuslanan həyatın daşıyıcılarıdırlar... Bu obrazlarda müasir dünyanın təqlid elədiyi özgələşmə, yadlaşma, uzaqlaşma, ünsiyyət böhranı yoxdur, qohumluq əlaqələri, yerlilik təəssübkeşliyi, loxmanı-ruzini paylaşma mədəniyyəti, çətin məqamlarda bir-birlərinə əl uzatmaq, hamilik etmək əxlaqı olduqca əhəmiyyətlidir... Müəllif hər vəchlə personajların mentalitetindən irəli gələn özüməxsus xüsusiyyətləri, insanların milli ənənədən, mentaldan gələn kollektiv davranışındakı əxlaqiliyi, insaniliyi qabardır, hamının olmasa da, sosial çoxluğun bölüşdüyü müsbət mənəvi ortamda Muradın taleinə biganəlik sindiromu yansımır, onu kənar, yad təhdidlərdən, ictimai anomaliyalardan qoruyur, müasirliyə - indiki biganəlik halımıza düzən verən nümunəyə çevrilir.

*(Davamı var)*